

# Qarabağın dirçəlişi uğur müstəvisində

***Gördüyümüz bütün işləri öz hesabımıza edirik. Biz bunu etməyə davam edəcəyik. Lakin, əlbəttə, qəribədir ki, torpaqların azad edilməsindən, demək olar, il yarım keçməsinə baxmayaraq, heç kim bizə kömək etməyə hazır deyil. Yalnız sözlər, başqa heç nə. Nə donor konfransı ilə bağlı ideyalar, nə də maliyyə dəstəyi var. Hətta, məşhur qeyri-hökumət təşkilatları, məşhur beynəlxalq fondlar Qarabağ və Zəngəzurda baş verənlərə göz yumur. Bu, təəssüf doğurur. Bilirsiniz, biz əraziləri bərpa edəcəyik, Qarabağ və Zəngəzurda, dediyim kimi, yer üzündə cənnət nümunəsi yaradacağıq. Biz bunu nəyin bahasına olursa-olsun edəcəyik.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Otuz il yad əllərdə qalıb inləyən, gözdağımız olan yurd yerlərimiz, – dağlarımız, düzlərimiz indi artıq doğma əllərin sığalına, tumarına yatmağa, sevən ürəklərin hənirinə qızınmağa başlayıb. Qarabağ və Zəngəzur durmadan dirçəldilir, qamətini düzəldir. Zirvələrdə üçrəngli bayraqlarımız bəxtəvər-bəxtəvər dalğalanır, yamaclarda, yoxuşlarda ot basmış cığırlarımız yollara çevrilir. Çöllər çiçək açır, ormanlar yaz mehində qımışır. İnşaat meydanlarından mühərrik uğultuları, balta-çəkic səsləri gəlir. Həsrətlilərin həmişəlik olaraq dədə-baba ünvanlarına qayıtmalarına, cənnətməkan yerlərin torpağına, havasına, suyuna qovuşmalarına lap az qalır.***

Dövlətimizin başçısı martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edərkən bildirib ki, işğaldan azad olunmuş əraziləri ziyarət etmiş qonaqlar oradakı dağıntının miqyasını öz gözləri ilə görüblər. İşğal illəri ərzində ermənilər Qarabağ və Şərqi Zəngəzurda hər tərəfi dağıdıblar. Cinayətkar rejimin vandalizm, barbarlıq siyasəti nəticəsində Ağdam Qafqazın Xirosimasına çevrilib, Füzuli yerlə-yeksan olunub, digər rayonlar da bərbad günə salınıb. Otuz il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə məhv edilib.

Təəssüf ki, bütün işğal illəri ərzində beynəlxalq birlik buna susurdu. BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyası və digər mühüm beynəlxalq təşkilatlar tərəfindən bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələrin qəbul edilməsinə baxmayaraq, Ermənistana ciddi təzyiq göstərilmirdi. Təcavüzkara qarşı heç bir sanksiya tətbiq edilməmişdi. Hətta bəzi ölkələr işğalçı ilə təcavüzün qurbanını tərəzinin eyni gözünə qoymağa cəhd edirdilər. Ermənilərin bu əraziləri uzun müddət ərzində öz nəzarəti altında saxlamalarının əsas səbəbləri də elə bunlar idi. Azərbaycan bütün bunlarda təngə gələrək,möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ayağa qalxıb ərazilərini düşməndən təmizləməsəydi, ordumuz misilsiz şücaət, vətənpərvərlik göstərməsəydi, yəqin ki, bu işğal hələ də davam edəcəkdi.

Azərbaycan rəhbəri qonağa xatırladıb ki, Vətən müharibəsindən sonrakı quruculuq tədbirləri üçün indiyə qədər biz nə beynəlxalq təşkilatlardan, nə də dünyanın heç bir ölkəsindən beynəlxalq yardım olaraq bir dollar belə almamışıq. Bu etinasızlıq qəbuledilməzdir. Ümid var ki, barı bundan sonra BMT öz qurumları və kommunikasiya kanalları vasitəsilə bizi dəstəkləyəcək. Cənab İlham Əliyev Məskunlaşma Proqramı icraçı direktorunun Azərbaycana səfərini bu dəstəyin əlaməti saymaq istədiyini söyləyib.

Hər bir halda, öz gücümüzə, təpərimizə güvənərək, genişmiqyaslı bərpa-quruculuq tədbirlərinə başlamışıq. Hazırda Qarabağda böyük əmək cəbhəsi açılıb və doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın Böyük Qayıdışı durmadan yaxınlaşır. Azadlığına qovuşmuş ərazilərimiz baş planlar əsasında bərpa edilir, Qarabağın ölməz ruhu kənd-kənd, oymaq-oymaq özünə qayıdır.

Yaxşı xatırlayırıq ki, 2020-ci il noyabrın 16-da - məlum üçtərəfli Bəyanatın (Ermənistan üçün faktiki kapitulyasiya aktının) imzalanmasından 6 gün sonra ilk dəfə bölgəyə gələn qalib dövlətin və xalqın Prezidenti başlanğıcını Alxanlı qəsəbəsindən götürən Füzuli-Şuşa yolunun təməlini qoyub və bunu azad Qarabağda icrasına başlanan ilk layihə kimi dəyərləndirib. “Zəfər yolu” salınaraq, yaxın gələcəyin hünər, tərəqqi eskizlərinin icrasına uğurlu start verilib.

Sonrakı müddət ərzində Azərbaycanın öz gücünə etdikləri əsl möcüzə saymaq olar. Prezidentin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strategiyasının ən mühüm istiqamətlərindən biri məhz işğaldan azad olunmuş Qarabağın dirçəlişi prosesidir. İlk növbədə hər tərəfə işıq, su çəkilib. Bunlar postmüharibə dövrünün birinci həyati tələbləridir.

İndi artıq Füzulinin üzü gülür. Burada Beynəlxalq Hava Limanı var, möhtəşəm Zəfər parkı yaradılır. Ötən payız Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə müasir aeroport və “Zəfər yolu” açılıb.

Bu il 270 yaşı tamam olan Şuşanın ağ saçlarına sanki xına çəkilir. Tarixi abidələr bərpa olunur, evlər tikilir, yaşıllıqlar salınır, heykəllər ucaldılır. Buraya ziyarətə gəlib-gedənlərin ardı-arası kəsilmir. Şuşada yüksək səviyyədə xeyli beynəlxalq mədəni tədbir keçirilib. Zəfər Gününü Şuşada qeyd edən cənab İlham Əliyev və birinci xanım Cıdır düzündə hərbçilərlə görüşüblər. Bu il “Şuşa ili” elan olunduğuna görə, Nazirlər Kabineti tərəfindən zirvə-şəhərlə bağlı möhtəşəm tədbirlər planı hazırlanaraq təsdiq edilib. Şuşada artıq iki otel – “Qarabağ” və “Xarıbülbül” otelləri ötən ilin yayında bərpadan sonra yenidən istifadəyə verilib. Buraya gələn xarici qonaqlar da, yerli ziyarətçilər də həmin otellərdə qalırlar. Beşulduzlu “Park – otel” də tikilir. Obyekt müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Prezident İlham Əliyev deyib ki, Şuşaya çox böyük turist axını olacaq, ona görə burada “beş”, “dörd” və “üç” ulduzlu otellər olmalıdır. Hazırda həmin istiqamətdə işlər reallaşdırılır.

Zəngilanda “Ağıllı kənd” pilot layihəsi üzrə işlər sürətlənib, “DOST Aqropark”ın təməli qoyulub. Kəlbəcər və Laçın rayonlarında da zəruri quruculuq işləri aparılır. Bir neçə ay əvvəl Prezident və xanımı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində, Murovdağda inşa ediləcək 11,6 kilometrlik, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometrlik tunellərin bünövrəsini qoyublar, “Kəlbəcər” yarımstansiyasının açılışında iştirak ediblər. İndi “Kəlbəcər-1” Su Elektrik Stansiyası yenidən qurulur. Ötən ilin fevralında Laçında “Gülabird” SES-i işə salmış cənab İlham Əliyev növbəti səfərdə bu rayonun Qorçu kəndində ərazinin sayca üçüncü beynəlxalq hava limanının təməlini qoyub.

Qarabağda və Şərqi Zəngəzurda qonşu rayonlar arasında yolların çəkilişi də diqqət mərkəzindədir. Beləliklə, dəyəri milyonlarca manatla ölçülən neçə-neçə mühüm layihəyə reallaşdırılır. Ağdamda, Cəbrayılda, Qubadlıda, Hadrutda, Suqovuşanda ardıcıl işlər gedir.

Zəngəzur dəhlizinin açılması yönümündə irəliləyiş aşkar uğurdur. Zəngəzur dəhlizinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimləri hər kəsdə xoş təəssürat yaradıb. Sərhədlərin delimitasiya və demarkasiyasının açılmaz zərurətə çevrilməsi böyük diplomat olan cənab İlham Əliyevin ard-arda qazandığı qələbələr seriyasına aiddir.

Bərpa-quruculuq tədbirləri təkcə döyüş zonasına aid rayonları əhatə etmir. Bildiyimiz kimi, müharibə dövründə erməni faşistləri Gəncə, Tərtər, Bərdə və digər şəhərlərimizə ballistik raketlər, fosforlu və kasetli bombalar atıblar. Bu atəşlər nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaq və qadınlar həlak olub, 400-dən çox dinc sakin yaralanıb. İnfrastruktura ciddi ziyan dəyib: 5000-dən çox ev dağıdılıb, ziyan vurulub. Onların da bərpası üçün hərtərəfli tədbirlər görülür.

Bir sözlə, bərpa tədbirlərinin sayəsində Qarabağın yaraları birbəbir sağalacaq, orada həyat tamamilə öz məcrasına qayıdacaq. Ermənilərin törətdiyi ekoloji və kimyəvi terrorun da nəticələri aradan qaldırılacaq. İndidən görülən işlərin aydın konturları gözlərimiz önündə canlanır və nikbinliyimizi daha da artırır.

Quruculuq tədbirlərində dost Türkiyə və İtaliya şirkətlərinin iştirak etməsi müsbət haldır. Amma, hələlik digər ölkələrin Qarabağı dirçəltmə tədbirlərinə qoşulması nədənsə ləngiyir. Ötən ilin dekabrında Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında dost ölkələri bərpa işlərində iştiraka səsləyərək deyib ki, istərdik, onların şirkətləri də quruculuq layihələrinə podratçılar kimi qatılsınlar. Bərpa işlərini özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələr töhfə versinlər. Qoy, onlar da bizimlə həmrəylik nümayiş etdirsinlər. Birgə səylərlə şəhərləri dirçəldək və Qarabağı dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirək.

Daha bir vacib məqam. Qarabağı və Zəngəzuru viranəyə çevirmiş ermənilər müharibə zamanı, döyüş meydanlarında öz cəzalarını alıblar. Təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalı və törətdiklərinə görə təzminat ödəməlidir. Bu yöndə zəruri hüquqi tədbirlər həyata keçirilir. Eyni zamanda, ərazilərin minalardan təmizlənməsi çox mühüm məsələdir. Əslində, ermənilərin doğru-dürüst mina xəritələri verməməsi, dünyanın isə buna biganə yanaşması həm yeni faciələr törənməsinə, həm də bərpa işlərinin xeyli ləngiməsinə səbəb olur. Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktoruna bunları da xatırladaraq deyib ki, əməkdaşlığımız özündə bu mühüm reallığı da ehtiva etməlidir. Sonda Azərbaycan rəhbəri bu kontekstdə əməkdaşlığa nikbin baxdığını bildirib: “Düşünürəm ki, bizim Livan böyüklüyündə ərazini necə bərpa edəcəyimiz, işğaldan, dağıntıdan və başqa ciddi problemlərdən əziyyət çəkən digər ölkələr üçün yaxşı nümunə olacaq. Əminəm ki, bizim kimi eyni problemlərlə üzləşən və ya üzləşmiş bütün digər ölkələr üçün nümunə ola bilərik”.

Cənab Maimuna Mohd Şərif Azərbaycandakı inkişaf proseslərinin, şəhər planlaşdırma və inkişaf konsepsiyasının onda dərin təəssürat hissi yaratdığını söyləyib. Qeyd edib ki, Ağdam da daxil olmaqla işğaldan azad edilmiş ərazilərdə xüsusi yaşıl müasir eko-şəhər konsepsiyasının tətbiq edilməsindən məmnundur. BMT-nin Məskunlaşma Proqramı dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasında, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasında təcrübəsi ilə dəstək verir və bu xüsusda Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazırdır.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**